

**Mahmud Qacar - 70**

## Bağışla

***İşğal zamanı bizdən də ağır müsibətlər çəkə-çəkə gözü yolumuza dikilən qapımızda bağlı itlərimiz qaldı.***

Qarğışamı keçdik, gözəmi gəldik,
Dağları tərk edib biz düzə gəldik.
Yad yerdə qəflətən üz-üzə gəldik -
Elə bildim şimşək çaxdı, dağ uçdu,
Qapımızın alabaşı, bağışla!

Gözlərini gözlərimə zillədin -
Biz çəkirik eyni zülmü-zilləti
Zingildəyib fəryad etdin, inlədin,
Mən oxudum səni bircə baxışda -
Qapımızın alabaşı, bağışla!

Sadiq qalıb qoruduğun yurda sən,
Yaxşı çıxdın hər sınaqdan darda sən
Şərik oldun göz yaşıma burda sən.
Dərdimizi hara əkim bu xışla -
Qapımızın alabaşı, bağışla!

Kim deyir ki, susamadın, acmadın,
Diz bükərək yurd yerini qucmadın?
Yaldan ötrü düşmən səmtə qaçmadın -
Yalan sözdün - "Yanlış da bir naxışdır"
Qapımızın alabaşı, bağışla!

Hər tərəfdə al qan görüb üşüdün,
Yeni quduz Firon görüb üşüdün:
Kəndimizi viran görüb üşüdün
Üşüməzdin qışda qarda, yağışda -
Qapımızın alabaşı, bağışla!

Bizim olan yenə bizə qalınca
Sən qurda dön, mənsə Misri qılınca.
Bu torpağın intiqamın alınca
Qaçqın adı başımıza qaxıncdır -
Qapımızın alabaşı, bağışla!

**2 aprel 1994-cü il.**
**Füzuli rayonu.**

## Nə dilbilməzdir bu ağac

***Telefonunu qulağına sıxaraq bir əliylə dibində durduğu ağacı döyəcləyə-döyəcləyə bir qız hönkürə-hönkürə ağlayırdı.***

Dəcəl bağça uşağıtək
Şimşək göyü cızıqlayır.
Telefonu cavab vermir,
Altında bir qız ağlayır -
Nə dilbilməzdir bu ağac?!.
Ağ yağış ac quşlar kimi

Yarpaqların dimdikləyir.
Bir yandan da qız budağın
günahkartək çimdikləyir -
Nə dilbilməzdir bu ağac?!.

Bahar çağı budağında
Min həvəslə yuva quran
qoşa "bitəni" görübdür,
Qıza yağlı vədlər verən,
Dil-dil ötəni görübdür -
Nə dilbilməzdir bu ağac?!.

Bir vaxt oğlan öz eşqini
bu ağac altında açıb.
Ağac ki, canlı şahiddir,
nə olsun, o, namərd qaçıb -
Nə dilbilməzdir bu ağac?!.

Niyə yalan eşidəndə
budağıyla göz deşmədi,
Bu vüqarlı yaşıl gözəl
ağı-qaradan seçmədi? -
- Nə dilbilməzdir bu ağac!

Çiçəklər də üz çevirir,
başlarını yana əyir.
Eşqinə dönük çıxanı
Yer də, göy də lənətləyir -
Nə dilbilməzdir bu ağac?!.

**Bakı şəhəri,**
**08.06.2019**

## Hörüklərin

Sənin gur hörüklərin
enerji, nur yükləyir -
Sevdiyini əbədi
həyata "hörükləyir".
Sənin gur hörüklərin
bəd-nəzərdən qoruyan
ildırımötürəndir;
nəndən bir yadigar,
ondan borc götürəndir.
Sənin gur hörüklərin
ilk eşqin ilk adıdır -
Əhatə dairəsi
Yer qatı, Göy qatıdır.
Sənin gur hörüklərin
"Saçlı"*nın da arzusun
həyat verib yaşadır.
Sənin gur hörüklərin
uzaqvuran sapanddır -
gələcəyə daş atır

***S.Rəhimovun "Saçlı" povesti nəzərdə tutulur.**

## Bədbəxtlikləri də var

Dünyanın ən bəxtəvər
varlığıdır balıqlar -
üzməkdən doya bilirlər,
qulaqlarını sahildə
qoya bilirlər.
Bu gözü - könlü toxlar
yalnız suları qoxlar,
dənizi yeganə guşə bilirlər.
Bizcə bədbəxtlikləri də var -
aldanıb, insanların
toruna düşə bilirlər.

## Hara gedirsən belə?

Getdikcə dirənir yol yoxuşlara,
Yolçusu yorğundu, uzaqdı qürbət.
Köçəri quşlara, qərib quşlara
Hardasa qurumuş budaqdı qürbət.
Məmməd İsmayıl

Yolun açıq, a yolçu -
Hara gedirsən belə?!
Tək-tənha, uça-uça
Hara gedirsən belə?

Bilirsənsə nəyi xoş -
Məni də özünə qoş!
Ürək dolu, xurcun boş -
Hara gedirsən belə?

Yal aşanda ağlayıb,
Bir an ayaq saxlayıb
Taleyə bel bağlayıb -
Hara gedirsən belə?

Bir yavaş get, ay oğul,
Səni də ana doğub!
Onun ümidin boğub -
Hara gedirsən belə?

Hər gedənlə boşalır -
Vətən də yetim qalır.
Başsızlıq çox baş alır -
Hara gedirsən belə?

## Həmişə təmizlikdə

Təzə küləklər əsir,
Çay dənizə tələsir
Saflaşmanın əvəzi
Həmişə təmizlikdədir.

Haqqa üz tut ağ üzlə,
Tanrı verər, sən istə!
Su zanbağı su üstə
Həmişə təmizlikdədir.

Ruhumuza nur ələr,
"Quran"dakı surələr.
Yağış yağır, dərələr
Həmişə təmizlikdədir.

Cismimiz pak əməllə,
İsmimiz pak təməllə.
Dünyamız təkamüllə
Həmişə təmizlikdədir.

Adəmin adaşıyıq -
Təmiz bir ad daşıyaq,
Kaş həmişə yaşayaq
Həmişə təmizlikdə biz.

ədalət 2019.- 27 avqust.- S.8.